

# Təzyiq

Hekayə

*Təranə Arifqızı*

Təzyiqölçən aparatın mili yüz qırxla iki yüzün arasında titrəyib keçdi. Həkim soyuqqanlı halda iynə hazırlayıb, venadan vurdu. Xəstəyə sakitləşdirici həb vermələrini tapşırdı. Qadın özündə deyildi.

Dili keyimişdi. Tibb bacısı zorla onun ağzını açıb dərmanı dilinin altına qoydu. Gözləri açılmırdı. Bütün bədənini əsməcə tutmuşdu. Dişləri bir-birinə dəyirdi.

-Üşüyürsən?- tibb bacısı soruşdu.

Cavab verə bilmədi. Göz qapaqları örtülü olsa da, eşidirdi. Iki damcı göz yaşı yuvarlanıb yanağından üzaşağı süzüldü.

Hönkürüb ağlamaq istəyirdi, heyi çatmırdı. Tibb bacısı iki yun adyal gətirib, üstünü basdırdı. Qoluna iynə yeridib, sistem qoşmuşdular. Onunla maşında təcili tibbi yardım mərkəzinə gələn iş yoldaşlarının pıçıltısını eşidirdi:

-Sədr bildi, görəsən?

-Bilməmiş olmaz. O boyda səs-küyü eşitmədi yəni? Çoxdan xəbər çatdırıblar. .

- Başınıza dönüm, hər kəsin qabında nə var, onsuz da, onu qoyacaq ortalığa. Bir-birinin ayağının altını qazmaq, pis günə salmaq kimə nə qazandıracaq axı?

-Sara deyir, mən hələ elə səviyyəsiz, əclaf adam görməmişəm. Tərlan qarşısından çəkildikcə, yumşaq danışıb altdan aldıqca, kişi daha alçaldıcı sözlər deməyə çalışırdı.

-Elə deyib ki, bunun da ürəyi tablamadı da. Təzyiq fırladı iki yüzə. Bəziləri kimi min sıfəti yoxdu ki. Yaltaqlana, sağına-soluna keçə.

-Elələrini də vəzifə başına qoyurlar, illərinən oturduğu yerdən qalxmır. Irəli getmək istəyənin başından basır, ayağının altını qazır.

-Day demə e, elə şərəfsizlər adama şər də atar.

- Görək, sabah noolur da? Qorx ki, günahkar Tərlan çıxa..

***

Sədr çağırmışdı. Iş yerində bu həddə çatan məsələnin məğzini Tərlanın özündən eşitmək istəyirdi.

Dünən xəstəxanadan işə qayıtmışdı. Anası onu o halda görməsin deyə, evə getməmişdi.

Iş vaxtı qurtarana kimi səssiz- səmirsiz oturmuş, saat altıda adamların maraqlı baxışları altında saytdan çıxmışdı.

İndi içəri keçmək üçün sədrin otağından çağırış zəngi gözləyirdi. Deyəcəkləri hazırdı. Amma içəridəkinin kimin tərəfində duracağı bəlli olmazdı. Əslində, çox da pis adam deyildi. Hər zaman haqqın tərəfində durardı. İndi məsələ başqa cürdü. Bir tərəfdə öz təşkilatında işləyən, hər bir hərəkətində haqlı olan, ən əsası yalan danışmayan Tərlan, o biri tərəfdə vəzifə hərisi, yaltaqlıq mücəssiməsi agzından ”dürr tökülən” bir hökm sahibi dayanmışdı. Burda işlədiyi dörd il müddətində belə ciddi bir məsələ yaşamamışdı. Kiçik söz-söhbətlər də həmişə iş üstündə olmuşdu. Bəs bu, iş üstə deyildi? Bir belə qalmaqal, həyatında ürək ağrısı nədir, bilməyən bir adamın birdən-birə iki yüz təzyiqlə xəstəxanaya çatdırılması...keçirdiyi əsəb, sarsıntı...

Həkim, onu bu hala nəyin saldığını soruşanda, yanındakılar - işdə olub. - demişdilər.

-O, hansı iş yeridi ki, adamı az qala ölüm vəziyyətində çatdırmısız bura? - Eşıtdiyi cavaba başın bulamısdı. - Ora elə hər zaman intriqa ocağı olub...

***

Tərlanın yeni bir layihəsi vardı. Adı ”Sözün düzü” idi. Sözün düzü ha, səhv oxumadınız. Şəhərin nə ki, qaymaq insanları vardı, bu layihədə iştırak etmişdilər. Hərəsi ürəyində olan düzlərini danışmışdı. Bəzisinin dili başqa, ürəyi başqa söz demişdi. Olsun, indiki vaxtda hamı sözün düzün danışmaz ki. Dəvət elədiklərinin mənəvi dünyasına səmimi suallarla körpü salmağa çalışmışdı. Salmışdı da. Sonda hamı bu fərqli layihəni bəyənmiş, qonaqları şablon suallar eşitmıdikləri üçün ürəkdən təşəkkür etmişdilər.

Növbəti qonağı da ziyalılar arasındandı. Hər zaman hörmətini saxladığı, başqa layihələrə müsahib kimi dəvət etdiyi bir insan. Hətta yanvar ayında yubileyi münasıbətiylə qonaq da çağırmışdı. Neçə dəfə başqaları bu layihəyə dəvət almaq istədiklərini eşıtdirsələr də, ilk şair olaraq onu dəvət etməyi düşünürdü.

***

İş yerinə zəng vurdu. Telefonu katibəsi götürdü:

-Yerində deyil, gələndə sizin zəng vurduğunuzu deyərəm.

Tərlan:

- Günortadan sonra özüm vuraram,- deyib, dəstəyi qoydu. Bura işə gələndən düz-əməlli yazı da yaza bilmirdi. Yəni, bu mümkün deyildi. Müsahibələr, qonaqlar, araşdırmalar ürəyindəkiləri boşaltmağa imkan vermirdi. Hələ otaqdakı yorucu dedi-qodular, mənasız söhbətlər beynini qazana döndərirdi, bir cümlə yazıb, on cümləlik boş söhbətə qulaq asırdı. Danışanlara da, Allah insaf versin. Zorla adamı onlara qulaq asmağa məcbur edirdilər. Yazdıqlarını bir yerə toplayıb kitab halına gətirmək istəyirdi. Əvvəlki iki kitabın redaktəsi bərbad halda idi. Ona görə də tələsmirdi. Əsas kitab deyil, yazdıqları olmalıydı. İndi oxunmaq o qədər də çətin deyildi. Sosial şəbəkələr, saytlar, qəzetlər...

- Alo, salam, müəllim, necəsiniz?

Telefonun o başından:

- Sağ olun.- eşitdi. -Layihənin mövzusunu öyrənib, sabah gələrəm, dedi.

***

Saat onun yarısı idi. Qonağı gəlməmişdi. Görəsən nə oldu, niyə yubandı? Naəlac qalıb bir də dəstəyi qaldırdı, bəlkə bir işi çıxıb? ”Xəbər eləsin də, axı, mən bunu hazırlayıb vaxtında verməliyəm”. Bir anlıq hövsələsi qaçsa da, dəstəkdən eşitdiyi səs onu diskindirdi:

-Tərlan xanım, sizin bu layihə mənim xoşuma gəlmədi.

-Niyə, müəllim? Səbəb?

-Mənlik deyil, gələ bilmərəm.

Tərlan onun bu məsuliyyətsizliyini sindirə bilmədi.

Gələ bilmirdiniz, dünən deyə bilərdiniz. Mənim işimi ləngidirsiz axı. Başqa qonaq tapa bilərdim.

-Gec deyil, kimi çağırırsınız, çağırın..

-Çox sağ olun, heç kimi məcbur olaraq buraya çağıra bilmərik. Təşəkkür ed...

O başdan dəstək çırpıldı. Üzünə çırpılmışdı əslində. Hörmət etdiyi bir adamdan gözləmədiyi hərəkət idi. Sifəti od tutub yanırdı. ”Lənət şeytana”-deyib, layihədə könüllü olmaq istəyənlərdən bir ziyalını qonaq çağırdı....

***

İblisin oğlu da onlarla işləyirdi. Çox da savad yiyəsi olmasa da, çulunu sudan çıxarırdı. Dədə - balaya ”boğazdanyuxarı vətənpərvərlər” adını da qoymuşdular. Çünki gördükləri işdə, yazdıqlarında urək işığı tapmazdın. Amma o, bu sayta işə gələndən dədə vətənpərvərin ona münasibətindəki dəyişikliyi hiss edirdi. Tədbirlərə çağırılmır, yazdıqlarına dodaq büzdüyü qulağına dəyirdi. Amma Tərlan da Tərlanıdı. Belə şeyləri vecinə almazdı. ”Insandı, ola bilər”, düşünürdü.

***

Adi iş günlərindən biri idi. Tərlan Saranın otağındaydı. Axşam sayta qoyulan ”Sözün düzü”-dən danışırdılar... Birdən iki gün əvvəl layihədə olmaqdan boyun qaçıranın kinayəli səsi hər ikisini çaşdırdı:

-Həə, Tərlan xanım, mən də axşam qulaq asırdım. O nə sualları verirdiniz Tofiq müəllimə?

İki gün əvvəl olan telefon söhbətini unudub, işinin uğuruna sevinən Tərlan onun dil-dodağını necə çeynədiyinin fərqinə varmadan:

-Müəllim, necə alınmışdı? Iradlarınızı eşitmək istərdim. Hansı suallar sizi narahat elədi?- deyə yumşaqcasına dilləndi.

-Hansı rəngdən xoşunuz gəlir? Nə bilim, hansı mahnının həyatınızda xüsusi yeri var?... Qonağa belə sual verərlər?

Tərlan verdiyi çoxlu suallar arasında bu özünü bəyənmişin yadında ancaq bunların qaldığını anadı. Yenə də səbrini basıb, təmkinlə cavab verdi:

-Sualı eşitmisinizsə, yəqin, cavabı da eşitmisiz.

-O tip suallara başqaları cavab verə bilər. Siz, mənim kimi vəzifəli şəxsə bu sualları verə bilməzsiniz- deyə, qəzəblə pəncərəyə sarı dönərək, arxasını çevirdi.

Tərlan son dərəcə təəccüblü baxışlarla Saraya baxdı:

-Bu niyə belə edir?

Sara dodaqlarını büzərək, çiyinlərini çəkdi.

Onun bu yersiz ittihamla dediklərini fikrində götür-qoy edən qadın sərrast cümlələrlə odun üstünə su səpməyə çalışdı:

-Müəllim, niyə belə qəzəblə danışırsınız? Oradakı siz deyildiniz, Tofiq Seyidov idi. Razı olmadınız, biz də sızı narahat edib, bu sualları vermədik.. Suallarımı tanınmış ziyalı və bundan da əvvəl bir insan kimi də cavablandıra bilərdiniz. Hər bir insanın mənəvi iç dünyası var. Heç bir vəzifənin buraya dəxli ola bilməz. Hətta dahi insanlardan biri sizin bəyənmədiyiniz bu iki sualı elə səmimi cavablandırıb ki.... eşitməmisinizsə, bütün internet saytlarında var. Açıb dinləyə, oxuya bilərsiniz. Deyəsən o, əl çəkənə oxşamırdı. Yəqin, uzun zamandır içində yığdığı kini, nifrətini qusmağa bəhanə gəzirdi. Tərlanın təmkini onu daha da hövsələdən çıxarırdı. ”Bəs oğlum deyirdi, haqsızlığa dözə bilmir, tez qabarır. Bəs, dediklərimi niyə belə sakit qarşılayır? Özündən çıxmasını, məni hörmətsiz etməsini istəyirəm. Əlimdə dəlil olmalıdı.”

Tərlanın onun bəd niyyətindən xəbəri yox idi. Sonu heç də yaxşıya getməyən bu xoşagəlməz söhbətdə ağzından dadsız söz çıxar, bu ağsaqqal adamı hörmətsiz edər deyə, durub otaqdan çıxmaq istədi. Sara da qaşqabağını tököb, müəllimi sakitləşdirməyə çalışırdı. Elə qapıdan iki addım aralanar-aralanmaz həddini aşıb, ona ”sən” deyə xitab edənin:

-Mən bilirəm, qarnuvun dərdi nədi. Səni birliyə üzv qəbul eləməmişəm, ona görə mənimlə icəşirsən. Belə səviyyəsiz layihələrə çağırırsan!!

Sözlərinin ona deyildiyinə inanmayaraq arxaya qanrıldı. Nə deyəcəyini bilmədən, birdən ən əziz and yerinə üz tutdu:

-Atamın goruna and olsun, əgər mənim yadıma sizin dedikləriniz düşürsə...

Artıq içindəki hörmətə bağladğı səbr tükənirdi. Fikri sürətlə işləyirdi. Üç ay olar, ondan sənədlərini və iki - üç şairdən zəmanət alıb gətirməsini istəmişdi. ”Nə yaxşı?” - deyə sevinmişdi.

Birliyə qəbul etməsə, urəyində incisə də, belə şeylərin işinə təsirini yol verməzdi. Ziyalı bildiyi birinin belə ara sözləri ilə danışması ona qəribə gəlirdi. Bu qəribəliyin içindən çıxmamış eşitdiyi daha bir bir cümlə onu çığırından çıxartdı.

- Mən səni, şair elədim!! Vəsiqən də, hazırdı, göndərəcəyəm gəlsin!

Kitabına redaktorluq etmişdi. Kaş, etməyəydi. Redaktə deyilən bir şey yoxudu... İndi, o kitabdakı şeirləri sosial şəbəkələrdə redaktəsiz paylaşmırdı. Bunu özü də çox gözəl bilirdi. Bəs niyə belə deyirdi?

-Əlimdən tutub şeirmi, mətnmi yazdırdınız mənə? Yoxsa, bəziləri kimi pul verib şeir almışam sızdən?

Tərlan əsəbdən əsim-əsim əsirdi. Iblisin susmaq fikri yox idi:

-İndi də buranın hesabına tanınırsan.

Bayaqdan səviyyədən danışan İblisin səviyyəsiz sözlərinin ardı-arası kəsilmirdi:

-İtin başın tabağa qoydular, hellən-di suya düşdü.

Bu lap ağ oldu. Eşitdiyi, layiq olmadığı təhqirlərə baxmayaraq, yüksək səslə cavab versə də, son ana kimi ağzından toxunaqlı söz çıxarmayan Tərlanın bütün bədəni uçunurdu:

-Əgər o vəsiqəni mənə göndərsəniz, parça-parça edib, salaram ayağımın altına, çünki ona sizin kimi səviyyəsizin əli dəyib.....

Tərlan, iblisin murdar təzyiqlərinin nəticəsində gözlərini bir də, təcili tibbi yardım mərkəzində açdı...

Ədalət.- 2020.- 7 fevral. S. 4.